*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 220-226*

https://doi.org/10.62837/2024.10.220

**FATMA ŞAMİL qızı AĞAMİROVA**
*Azərbaycan Dövlət Mədəniyyət və*
*İncəsənət Universiteti*
*E-mail:agamirovafatima61@mail.ru*

# MÜASİR DİLÇİLİKDƏ SOSİOLİNQVİSTİK İSTİQAMƏTLƏR

**XÜLASƏ**

Məqalədə müasir dilçilik elmi daxilində sosiolinqvistikanın inkişaf etməkdə olan istiqamətləri araşdırılır, onun dil və cəmiyyət arasında qarşılıqlı əlaqələrin dərk edilməsində əhəmiyyəti vurğulanır. Sosiolinqvistika sosial strukturların, mədəni normaların və şəxsiyyət formalaşmasının dil təcrübələrinə necə təsir etdiyini araşdırır. O, dilə dinamik kontekstdən asılı olan bir fenomen kimi yanaşır. Sosiolinqvistika qloballaşmanın, texniki tərəqqinin və miqrasiyanın linqvistik davranışlara təsirini vurğulamaqla, dillərin qorunması və inkişafı kimi problemlərin həllinə imkan yaradır. Nəzəri yanaşmaları və praktiki mülahizələri sintez etməklə məqalə müasir dilçilikdə sosiolinqvistikanın rolunu hərtərəfli təhlil edir. Məqalədə dil dəyişkənliyi, çoxdillilik, dil münasibətləri və dil dəyişkənliyinin sosial-siyasi ölçüləri, o cümlədən dünyada mürəkkəbləşməkdə olan dillərdən istifadə və onların idarə edilməsi kimi mühüm sahələr araşdırılır.

**Açar sözlər:** dilçilik, sosiolinqvistika, sosioloji dilçilik, dil, sosiolinqvistik istiqamətlər, kommunikasiya

**Keywords:** linguistics, sociolinguistics, sociological linguistics, language, sociolinguistic directions, communication

**Ключевые слова:** лингвистика, социолингвистика, социологическая лингвистика, язык, социолингвистические направления, коммуникация

Dil insan fəaliyyətinin müxtəlif aspektləri ilə sıx bağlı olmuş və onların öyrənilməsində yardımçı rolunu oynamışdır. Həmin aspektlərdən biri də, sosiolinqvistik istiqamət olmuşdur. Belə ki, dil özünün mövcudluğu, fəaliyyəti və inkişafının bütün mərhələlərində sosial hadisə kimi çıxış etmiş - cəmiyyətdən kənarda mövcud olmamışdır. Dil mürəkkəb sosial hadisədir. Görkəmli Sovet dilçi alimi V.A.Avrorin dillərin sosioloji təsnifatını aparmış və dilləri qədim yazılı, yeni yazılı və yazısız olmaqla 3 qrupa ayırmışdır [Аврорин, 1972: 49-62]. Bir qədər sonra rusiyalı dilçi alim Y.D.Deşeriyev isə dilləri sosial funksiyalarına görə 5 qrupa bölmüşdür:

1. Müxtəlif millətlər arasında ünsiyyət vasitəsi olaraq (rus dili);
2. Digər dövlətlərin milli ədəbi dilləri;
3. Muxtar regionların və vilayətlərin milli ədəbi dilləri;
4. Sosial funksiyaları lokal - məhdud olan yazılı dillər;
5. Kiçik xalqlara aid olan və yazısı olmayan dillər [Kazımov, 2021: 35].

Buna görə də, dilə sosiolinqvistik tərəfdən yanaşma bir tərəfdən dilçilik, digər tərəfdən isə sosiologiyanın qovuşmasının nəticəsi olmuşdur. Bir elm olaraq soiologiya yalnız həyatın sosial sahələrinin müxtəlif istiqamətlərini deyil, həmçinin onun qarşılıqlı təsir və münasibətlər sistemində olan bütün istiqamətləri ilə birgə tam bir proses kimi tədqiq edir. Cəmiyyətdə baş vermiş bütün dəyişikliklər - tərəqqi və inkişaf, ilk olaraq məhz dil vasitəsilə inikas edilir. Son dövrlərdə dilin sosial proseslərdəki rolunun artması nəticəsində, sosiologiya və dilçilik elmlərinin birləşməsi kimi sosiolinqvistika elmi meydana çıxmışdı. Sosiolinqvistika özündə linqvistik-sosial tədqiqatları ehtiva etmişdir. Sosiolinqvistika termini elmə ilk dəfə olaraq 1952-ci ildə amerikan dilçi alimi Hayver Karri tərəfindən daxil edilmişdir [Currie, 1971]. H.Karri tərəfindən adı çəkilən sosiolinqvistika neologizmi insanın sosial statusunun onun danışığında hansı səviyyədə əks oldunuğunun tədqiq edilməsini nəzərdə tutmuşdur. Əsrin ortalarında sosiolinqvistikaya maraq o dərəcədə artır ki, artıq 1963-cü ildə ABŞ-də Sosiolinqvistika üzrə Komitə təsis edilmiş olur [Евсеева, 2021: 13]. Komitənin çərçivəsində dilçi və sosioloq alimlər yeni istiqamətin prinsip və metodologiyasını hazırlamışdılar. Bununla, XX əsrin ikinci yarısından başlayaraq sosiolinqvistika müstəqil elm sahəsi kimi inkişaf etməyə başladı. Hər bir müstəqil elm kimi, sosiolinqvistika elminin də özünün məqsəd və vəzifələri, metod və tədqiqat üsulları, predmeti və obyekti, o cümlədən problemləri mövcud olmuşdur. Bütün bunlara əsaslanaraq, lüğətlərdə bu terminə belə tərif verilmişdi: "Sosiolinqvistika - geniş problemlər kompleksini tədqiq edən, dilin sosial təbiəti, onun ictimai funksiyaları ilə sıx bağlı olan, dilə təsir edən sosial amillərin rolunu müəyyənləşdirən və tədqiq edən dilçilik sahəsidir." [Евсеева, 2021: 10]. Tanınmış dilçi alimlərin fikrinə görə, sosiolinqvistika elmi daha çox müasir dövrün problemlərini tədqiq etmişdir. Sözün geniş mənasında sosiolinqvistikanın predmeti "dil və cəmiyyətin" öyrənilməsi və təhlil edilməsi olmuşdur [Васильев & Васильева, 2018: 153].

Dil ilə sosial proseslər arasında qarşılıqlı təsirin artması nəticəsində, dilçiliyin sosiolinqvistik aspektlərinin tədqiqi ilə bağlı elmi işlərin də sayı artmışdır. Müxtəlif azlıqların dil xüsusiyyətlərini tədqiq edən Dal Neqro özünün tədqiqat işində bilinqv insanların danışıq strategiyalarını fərdiləşdirərək, onları azlıqların dilini yüksək səviyyədən aşağıya belə şəkildə düzmüşdür:

1. Kod dəyişkənliyinin yüksək tezliyi ümumilikdə danışanın nitqində baş verən dəyişmələr nəticəsində yaranır. Bu zaman azlıqda olan dilə qayıdış baş verir;
2. Danışıq və ya mətn funksiyalarının həyata keçirilməsi üçün istifadə edilən intersensional kod dəyişmələrinin yüksək tezliyi;
3. Daxiletmə və növbəli şəkildə kod qarışmalarının tezliyinin yüksəkliyi [Perta, 2020: 277].

Bütün dünyada olduğu kimi, Azərbaycanda da dilçilik ilə sosial proseslər arasında əlaqələr genişlənməkdədir. Bunun nəticəsində, müasir Azərbaycan dilçiliyində sosiolinqvistik istiqamətlər yüksək templə formalaşmağa başlamışdır. Qeyd edək ki,

hələ Sovet hakimiyyəti illərində Azərbaycan dilinə dair sosiolinqvistik tədqiqatlar aparılmışdır. Bu tədqiqatlarda daha çox rus dili ilə Azərbaycan dilli arasında əlaqələr, bilinqvizm kontekstində rus dilinin millətlərarası kommunikasiya vasitəsi olaraq tədbiq edilməsi və digər bu kimi məsələlər təhlil edilmişdir. Yalnız müstəqilliyin bərpasından sonra, Azərbaycanda istər bilinqvizm, istərsə də multilinqvizm mühitində müxtəlif milli dillərin millətlərarası kommunikasiya vasitəsi statusuna, azlıqda olan dillərin isə sosial tərəflərinə diqqət yetirilməyə başlanmışdır. Həmin dillərin təcrübədə öyrənilməsi üçün, müxtəlif televiziya-radio verilişlər, o cümlədən terminoloji lüğətlər və dili öyrənənlər üçün kitabçalar, dərslik və dərs vəsaitləri hazırlanmağa başlanmışdı [Kazımov, 2021: 33].

Müasir Azərbaycan dilinin elmi və təcrübi tərəflərinin sistemli, ardıcıl və kompleks şəkildə təhlil edilməsi üçün sosiolinqvistik amillərin böyük rolu olmuşdur. Bu ilk olaraq Azərbaycanda çoxlu sayda azlıqda olan dillərin (tat, talış, ləzgi və .s) mövcud olması ilə bağlı olmuşdur. Buna görə də, sosiolinqvistik mövqedən yanaşmaq müasir Azərbaycan dilinin funksional xüsusiyyətlərinin təhlil edilməsi üçün əsas şərt olmuşdur. Dilçiliyin sosiolinqvistik istiqamətləri daha çox dil və cəmiyyət, dil və etnoqrafiya, o cümlədən etnolinqvistika, dil və mədəniyyət, bilinqvizm və multilinqvizm kimi ortamları tədqiq etmişdir. Müxtəlif dillərin sosiolinqvistik cəhətdən təhlil edilməsi xüsusi dil qanunauyğunluqları, onların inkişafı və cəmiyyətdə funksionallaşması və digər sosial amillərin təsiri dərəcəsi ilə müəyyən olunur. Bu amillərin sırasına dilləri sosial diferensiallaşması, ərazi dialektləri, xalqların dilləri, jarqonlar və digərlərini aid etmək olar. Sovet dilçi alimləri tərəfindən dillərin sosial istiqamətlərinin inkişafı tədqiq edilərək, aşağıdakı qanunauyğunluqlar müəyyən edilmişdir:

1. Sosial funksiyaları geniş olan dillər;
2. Lüğət tərkibləri sürətlə inkişaf edən ədəbi dillər;
3. Sosial tərəqqi və dəyişikliklərin sürəti və intensivliyinin ədəbi dillərdə təzahürü;
4. Dillərarası əlaqə və münasibətlərin inkişafı;
5. Cəmiyyətin sürətli inkişafı nəticəsində, dialektlərin tədricən unudulması;
6. Millətlərarası əlaqə rolunu oynayan dilin sosial funksiyaları və onun digər dillərə təsiri tədricən artır;
7. Bilinqvizm və multiliqnvizm formalaşmağa başlayır;
8. Cəmiyyətin dillərin inkişafına müdaxiləsi artır.

Sosiolinqvistika həm də dillərin ərazi, sosial və funksional variantlarının tədqiqi ilə məşğul olur və bu variantları heterogen sistem olaraq öyrənir [Kazımov, 2021: 35]. Belə ki, sosiolinqvistikada dil vahidləri üfüqi xətt üzrə tədqiq edilir və dilin müxtəlif səviyyələrinin elementlərində mövcud olan ziddiyyətlər arasındakı münasibətlərin aşkar edilməsi yolu ilə öyrənilir. Sosiolinqvistikanın əsas vəzifələrindən biri dilə funksional sistem olaraq yanaşmadır. Bu zaman dillər sosial qruplarla sıx əlaqəli şəkildə tədqiq edilir. Qeyd olunanları nəzərə alaraq, müasir dilçiliyin aşağıdakı sosiolinqvistik istiqamətlərini ayırmaq olar:

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.220-226*

**1. Sosiolinqvistik variasiya və mənşə.**

Sosiolinqvistik variasiya müxtəlif regionlar, cəmiyyətlər və sosial qruplar daxilində olan dil müxtəlifliklərini öyrənir. Müasir sosiolinqvistik tədqiqatlar dillərin mənşəyinin dil seçimləri vasitəsilə formalaşdığını və ifadə edildiyini göstərmək üçün, sosial şəbəkə nəzəriyyəsi və təcrübə çərçivələri qruplaşması kimi elementləri özündə birləşdirir. Məsələn, natiqlər müəyyən bir qrupa uyğunlaşmaq və ya ondan fərqlənmək üçün öz danışıqlarındakı vurğunu və ya lüğəti dəyişə bilərlər.

Bundan əlavə, sosiolinqvistik variasiya qlobal təsirlərin yerli - məhəlli xarakter daşıyan xüsusiyyətlərə necə təsir etdiyini də öyrənir. Çoxdilli cəmiyyətlərdə fərdlər çox vaxt öz ana dillərinin xüsusiyyətlərini ingilis dili kimi qlobal dillərlə qarışdıraraq mədəni hibridliyin formalaşmasına səbəb olurlar.

**2. Multilinqvizm və dillər arası əlaqələr.**

Multilinqvizm yalnız ikidən çox dildə danışmaq bacarığı olmamış, o, dillərin ortaq sosial məkanlarda və şəraitlərdə qarşılıqlı şəkildə əlaqəli olduğunu da əks etdirmişdir. Əksər tədqiqatlarda dil istifadəçilərinin strateji və ya ifadəli məqsədlər üçün danışıq zamanı dillər arasında növbələşmiş dəyişmədən istifadə etdiyi araşdırılır. Məsələn, bir neçə dilə sahib olan şəxs öz emosiyalarını və mədəni xüsusiyyətlərini daha aydın şəkildə ifadə etmək üçün, danışıq zamanı ana dilinə keçə bilər. Bilinqv və ya multilinqv təcrübəyə malik olan müasir dillər özlərinin bu xüsusiyyəti sahəsində dilin inkişafı üçün çoxlu sayda leksik və digər elementlər - materiallar əldə etmiş olurlar [Sridhar, 1988: 354].

Dillər arasında əlaqələrin genişlənməsi nəticəsində, müxtəlif dillərdə danışanların ünsiyyəti üçün sadələşdirilmiş dillər (pidgin) və həmin dillərdən yaranan tam şəkildə inkişaf etmiş dillərin (kreollar) formalaşması baş verir [Robins & Crystal, 2024].

Bu prosesə nəzarət etmək və çoxdilliliyi inkişaf etmək üçün müxtəlif ölkələrdə həyata keçirilən rəsmi dövlət siyasətlərinin çox böyük rolu olmuşdur. Məsələn, Hindistan və İsveçrə kimi dövlətlər rəsmi olaraq çoxdilli çərçivələr vasitəsilə dil müxtəlifliyini təbliğ edirlər. Bundan fərqli olaraq, dünyanın digər dövlətlərində isə çoxluq və azlıqda olan dillər arasında gərgin mübarizə müşahidə edilir. Belə bir şəraitdə, sosiolinqvistika bu dinamikanı tarazlaşdırmaq və dillər arası əlaqəni təşkil etmək üçün dövlət siyasətinə yardımçı rolunu oynaya bilər.

**3. Texnoloji proseslərin sosiolinqvistikaya təsiri.**

Texnoloji tərəqqi insanlar arasında kommunikasiyanın qurulması üsullarını kökündən dəyişmişdi. Belə ki, internetin geniş kütlələr arasında yayılması nəticəsində, sosial media vasitələri, müxtəlif platformalar, mesaj və video danışıq üçün proqramlar və onlayn forumlarda emojilər, memlər, “lol”, “brb” və s. qısaldılmış jarqonlar kimi yeni linqvistik fenomenlər meydana çıxmışdı. Bu fenomenlər ənənəvi linqvistik sərhədləri aşaraq, qloballaşan ünsiyyət formalarını yaradırlar. Bu prosesdə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 220-226*

sosiolinqvistikanın rolu həmin yeniliklərin ənənəvi norma və standartlara hansı dərəcədə zidd olduğunu müəyyən etmək və araşdırmaqdan ibarət olmuşdu.

**4. Dilə münasibət və dil siyasəti.**

Dilə münasibət fərqli cəmiyyətlərin daxilində müxtəlif dillərin və ya dialektlərin necə qəbul edildiyini əks etdirir. Bunun əsasında linqvistik iyerarxiya formalaşır. Belə ki, bir çox keçmiş müstəmləkə ölkələrində təhsil və hətta biznesdə ingilis dilinə daha çox üstünlük verilir ki, bu da yerli dillərə müəyyən qədər ziyan vurur. Sosiolinqvistika bu dinamikanı təhlil edərək, bütün dil icmalarının bərabər şəkildə tanınmasına imkan yaradır. Sosiolinqvistika tərəfindən təqdim edilən dil siyasəti məhv olmaqda olan dillərin qorunması, həmin dillərin təhsilə bərabər səviyyədə çıxışının təmin edilməsi və çoxdilliliyin təşviq edilməsi məqsədini daşımışdır. Bəzi ölkələrdə bu sahədə müəyyən uğurlar qazanılmışdır. Məsələn, Cənubi Afrika Respublikasında (CAR) bir çox yerli dillərə konstitusiyada hüquqlar verilmişdir ki, bu həmin dilləri məhv olmaqdan xilas etmişdir. Dil siyasəti ilə yanaşı sosiolinqvistika həmçinin dil zəminində ayrı-seçkiliyi də öyrənir. Məsələn, vurğu pozuntulu insanlar peşəkar şəraitdə müəyyən çətinliklərlə üzləşə bilərlər. Bu cür çətinliklərin qarşısını almaq üçün, sosiolinqvistika dil müxtəlifliyini bir unikallıq və güc kimi təbliğ edir.

**5. Qloballaşma və dillərin təhlükəsizliyi.**

Qloballaşma prosesi dillər arası əlaqələri gücləndirsə də, bu proses həm də azlıqda olan dillərin məhvi prosesini sürətləndirmişdir. Belə ki, qloballaşma nəticəsində, ingilis dili qlobal dil kimi üstünlük əldə edərək, bütün digər dilləri sıxışdırmağa başlamışdır. YUNESKO-nun hesablamalarına görə, dünya dillərinin təqribən yarısından çoxu yox olmaq təhlükəsi ilə üz-üzədir [Wood, 2022].

Sosiolinqvistika bu böhranın qarşısını almaq üçün, dilləri qeydə alır və canlandırma proqamları təşkil edir. Məsələn, hazırda Avstraliya aborigenlərinə məxsus olan 250 dilin qorunması üçün "Languages alive" proqramı həyata keçirilməkdədir [Languages alive, 2024]. Bütün ziddiyyətlərə baxmayaraq, qloballaşma prosesi dillər arası əlaqələrin təşkil edilməsi üçün şərait yaratmışdır. Belə ki, qloballaşma prosesi nəticəsində, dil hibridləşmələri daha da inkişaf edərək, yeni-yeni dil birləşmələri formalaşmışdır:

- Franglish (fransız və ingilis dilləri);
- Runglish (rus və ingilis dilləri);
- Spanglish (ispan və ingilis dilləri);
- Chinglish (Çin və ingilis dilləri);
- Japanglish (yapon və ingilis dilləri);
- Hinglish (hind və ingilis dilləri) və s. [Kosharnaya, & Karimullah, 2023: 525].

**Nəticə.** Müasir dilçiliyin inkişafı onu göstərir ki, cəmiyyət ilə dil arasında sıx əlaqələr mövcud olmuşdur. Bu əlaqələrin əsasında və dilçilik ilə sosiologiyanın birləşməsi nəticəsində, sosiolinqvistika elmi meydana çıxmışdır. Dillərin sosial cəhət

və xüsusiyyətlərinin aşkar edilməsi və onların cəmiyyətdə oynadıqları rolun müəyyən olunmasında müstəsna rol oynamaqla, sosiolinqvistika dilçiliyin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Dilçiliyin hərəkətverici istiqaməti olaraq sosiolinqvistikanın qarşısında iki əsas vəzifənin durduğunu qeyd etmək olar: 1) dil vahidlərinin inkişafı faktlarının təyin edilməsi və bu yolla ictimai fikrə təsir edə biləcək kommunikativ strategiyaların və taktikaların hazırlanması; 2) Dilin aid olduğu etnik qrupun, cəmiyyətin və ya xalqın mənəvi vəziyyətinin dərk edilməsi və müasir cəmiyyətdə etnomədəni dəyərlərə diqqətin artırılması.

## ƏDƏBİYYAT

1. Currie, H. A. (1971). Projection of sociolinguistics : the relationship of speech to social status. *A various language : perspectives on American dialects*, 39–47.
2. Kazımov, C. (2021). Müasir Azərbaycan dilinin sosiolinqvistik aspektdə öyrənilməsi. Azərbaycan Dili və Ədəbiyyatı Tədrisi, No.3 (269), 30-38.
3. Kosharnaya, S.A., & Karimullah, R. (2023). Features of Bilingualism in the Era of Globalization: Theoretical Aspect. *Вопросы журналистики, педагогики, языкознания*, 42 (3), 523-530. https://doi.org/10.52575/2712-7451-2023-42-3-523-530
4. Languages alive. (2024, September 4). AIATSIS Centre for Australian Languages. https://aiatsis.gov.au/explore/languages-alive
5. Perta, C. (2020). Sociolinguistic Aspects and Language Contact: Evidence from Francoprovençal of Apulia. *Journal of Language Contact*, Vol.13, 271-288. https://doi.org/10.1163/19552629-bja10011
6. Robins, R.H., & Crystal, D. (2024, October 28). Pidgins and creoles. Encyclopedia Britannica. https://www.britannica.com/topic/language
7. Sridhar, S.N. (1988). Language Modernization: Structural and Sociolinguistic Aspects. *Euskara Biltzarra Congresso de la Lengua Vasca*, Vol.1, 350-360.
8. Wood, J. (2022, January 5). 1,500 endangered languages could disappear by the end of the century. World Economic Forum. https://shorturl.at/vGcmF
9. Аврорин, В.А. (1972). Двуязычие и школа. Проблемы двуязычия и многоязычия. *Наука*, 49-62.
10. Васильев, А.Д., & Васильева С.П. (2018). Актуальные Направления Развития Современной Социолингвистики. *Вестник Красноярского государственного педагогического университета им. В. П. Астафьева*, No.2 (44), 153-160. https://doi.org/10.25146/1995-0861-2018-44-2-69
11. Евсеева, Я.В. (2021). Исследования Языка в Социолингвистике и других Социальных Науках: Проблемы и Перспективы: введение к тематическому разделу. *Социальные и гуманитарные науки. Отечественная и зарубежная литература. Социология: Реферативный журнал*, (1), 9-19. https://doi.org/10.31249/rsoc/2021.01.01

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 220-226*

**AGAMIROVA FATMA SHAMIL**

**SOCIOLINGUISTIC DIRECTIONS IN MODERN LINGUISTICS**

**SUMMARY**

The article examines the emerging trends of sociolinguistics within modern linguistics, emphasizing its importance in understanding the interrelationships between language and society. Sociolinguistics examines how social structures, cultural norms, and identity formation influence language experiences. It approaches language as a dynamic, context-dependent phenomenon. By emphasizing the impact of globalization, technological progress, and migration on linguistic behavior, sociolinguistics provides an opportunity to address issues such as the preservation and development of languages. By synthesizing theoretical approaches and practical considerations, the article comprehensively analyzes the role of sociolinguistics in modern linguistics. The article examines important areas such as language variation, multilingualism, language relations, and the sociopolitical dimensions of language variation, as well as the use and management of increasingly complex languages in the world.

**АГАМИРОВА ФАТМА ШАМИЛЬ**

**СОЦИОЛИНГВИСТИЧЕСКИЕ НАПРАВЛЕНИЯ В СОВРЕМЕННОМ ЯЗЫКОЗНАНИИ**

**РЕЗЮМЕ**

В статье рассматриваются новые тенденции социолингвистики в современной лингвистике, подчеркивая ее важность в понимании взаимосвязей между языком и обществом. Социолингвистика изучает, как социальные структуры, культурные нормы и формирование идентичности влияют на языковой опыт. Она рассматривает язык как динамическое, контекстно-зависимое явление. Подчеркивая влияние глобализации, технологического прогресса и миграции на языковое поведение, социолингвистика дает возможность решать такие вопросы, как сохранение и развитие языков.

Синтезируя теоретические подходы и практические соображения, статья всесторонне анализирует роль социолингвистики в современной лингвистике. В статье рассматриваются такие важные области, как языковая вариативность, многоязычие, языковые отношения и социально-политические аспекты языковой вариативности, а также использование и управление все более сложными языками в мире.

**Rəyçi: f.ü.f.d. Əhmədova S.S.**
**tərəfindən çapa tövsiyə olunmuşdur**